| № | Xidmətin adı | Tikintilərin Dövlət reyestrinin aparılması |
|---|---|---|
| 1 | Dövlət orqanı | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 2 | Xidmətin məzmunu | Tikilən, istismar edilən və sökülən tikinti obyektlərinin, habelə bu Şəhərsalma və Tikinti Məcəlləsinin 35-ci maddəsində nəzərdə tutulmuş qadağaların və məhdudiyyətlərin qeydiyyatını aparmaq |
| 3 | Xidmətin aid olduğu təsnifat | Tikinti, şəhərsalma, memarlıq |
| 4 | Xidməti həyata keçirən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 5 | Xidmətin icrasında iştirak edən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı | - |
| 6 | Xidmətin hüquqi əsası | -Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 35, 75, 80, 102 və 104-cü maddələri;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları” |
| 7 | Xidmətin həyata keçirilmə formaları | Poçt xidməti vasitəsi ilə müraciət və nəticənin kağız daşıyıcısında təqdim olunması |
| 8 | Xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması | -Poçt xidməti vasitəsilə məlumatlandırma<br>- Veb sayt vasitəsilə məlumatlandırma |
| 9 | Xidmətin həyata keçirilməsinin nəticəsi | -Tikilən, istismar edilən və sökülən tikinti obyektləri barədə məlumatların Tikintilərin Dövlət reyestrinin internet saytında yerləşdirilməsi<br>-Tikinti obyektlərinə verilən koda dair Şəhadətnamə |
| 10 | Xidmət istifadəçisi barədə məlumat | -İcazəverən, məlumatlandırılan dövlət orqanları<br>-Fiziki şəxslər<br>-Hüquqi şəxslər |
| 11 | Xidmətin həyata keçirilməsi müddəti, Dövlət rüsumu, Xidmət haqqı, Ödənişin hüquqi əsası: | |
| 11.1 | Müddət | 3 İş günü, |
| 11.2 | Rüsum | Rüsum yoxdur, |
| 11.3 | Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti | Xidmət ödənişsiz olaraq həyata keçirilir |

| | | |
|---|---|---|
| 15 | Xidmətin göstərilmə yeri | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin inzibati binası |
| 16 | Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nın 4.3-cü bəndi |
| 17 | Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması | -Tikintiyə icazənin verilməsi ilə bağlı:<br>• obyektin tikintisinə icazənin surəti;<br>• sifarişçinin torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti;<br>• tikinti obyektinin yerləşdiyi ərazinin müfəssəl planından çıxarış və ya təsdiq edilmiş şəhərsalma əsaslandırılması;<br>• tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi;<br>• tikinti obyektinin əsas texniki göstəriciləri, yerləşdiyi torpaq sahəsinin döngə nöqtələrinin koordinatları (koordinatlar sifarişçinin torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəddə göstərilmədiyi hallarda), situasiya planı və təyinatı barədə məlumat;<br>• "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növlərinə dair ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və dövlət ekoloji ekspertizasının rəyi.<br>-Tikinti obyektinin istismarına icazə verilməsi ilə bağlı:<br>• tikinti obyektinin ünvanı və onun döngə nöqtələrinin koordinatları;<br>• tikinti obyektinin istismarına icazə verən orqanın (qurumun) adı və ünvanı, eləcə də həmin orqanın (qurumun) vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi və imzası;<br>• tikinti obyektinin istismarına icazə verildiyi tarix və icazənin nömrəsi;<br>• tikinti obyektinin istismar təyinatı;<br>• tikinti obyektinin əsas texniki göstəriciləri (layihə üzrə və faktiki);<br>• Reyestr tərəfindən tikinti obyektinə verilmiş kodun nömrəsi;<br>• tikinti obyektinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğun inşa edilməsini və tikintiyə dövlət nəzarətinin həyata keçirilməsinin başa çatmasını əks etdirən istismara hazırlıq aktı.<br>-Sökülməsi nəzərdə tutulan tikinti obyektlərinin ünvanı, ümumi sahəsi və həcmi.<br>-Məlumatlandırma icraatının tətbiq olunduğu, tikintisi başa çatmış tikinti obyektlərinin tikinti layihəsinin yalnız zirzəmilərin, mərtəbələrin, dam örtüklərinin planlarından, kəsiklərdən və fasadlardan ibarət memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin surəti. |
| 18 | Ödənilmə üsulları | Xidmət ödənişsizdir |

| | | |
|---|---|---|
| 19 | Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar | İcazə verən və məlumatlandırılan qurumlar tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nın 3-cü bəndində tələb olunan sənəd və məlumatlar həmin qaydada göstərilmiş müddət ərzində reyestrə təqdim olunur. Təqdim olunmuş sənəd və məlumatlar 3 iş günü ərzində Reyestrin internet səhifəsində yerəşdirilməklə bu barədə məlumatı təqdim etmiş quruma məktub göndərilir. Tikintiyə icazə ilə bağlı müraciət edildikdə, cavab məktubuna Tikinti obyektlərinə verilən koda dair Şəhadətnamə də əlavə olunur. |
| 20 | Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar | |
| 21 | Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları | Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi |
| 22 | Xidmətin elektronlaşma səviyyəsi | Elektronlaşdırılmayıb |
| 23 | Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi | Avtomatlaşdırılmayıb |
| 24 | Xidmətin elektron ünvanı | Yoxdur |